No: 02 2025
https://doi.org/10.64400/ndueej.033
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# NAXÇIVANLILARIN II DÜNYA MÜHARİBƏSİNİN ÖN CƏBHƏLƏRİNDƏ YAZDIQLARI CƏBHƏ MƏKTUBLARI "ŞƏRQ QAPISI" QƏZETİNİN SƏHİFƏLƏRİNDƏ

[1]**Fəxrəddin Cəfərov**
https://orcid.org/0009-0006-5541-6814

[2]**Rəhimov Yaşar Nihad oğlu**
https://orcid.org/0009-0006-5473-8758
**yasarrahimov@yahoo.com**
[1]Naxçıvan Dövlət Universiteti, Naxçıvan.
[2]AMEA Naxçıvan Bölməsi, Naxçıvan.
**Yazışılan müəllif:* fexreddinceferov@ edu. az ; *Tel.: +994 60 561 19 51*

**XÜLASƏ**
Araşdırılan mövzu indiyə kimi ayrıca bir təqiqat obyekti olmamışdır. Buna görə o aktuallıq baxımından mühüm əhəmiyyət kəsb edir. Məqalənin yazılmasında əsas məqsəd "Şərq qapısı" qəzetinin materiallarına söykənərək II Dünya müharibəsi illərində Naxçıvan döyüşçülərinin ön cəbhələrdən yazdıqları məktubları ətraflı şəkildə, elmi metodlarla araşdırmaqdan ibarətdir. Məqalənin metodoloji əsasını tarixi dərketmənin elmi prinsipləri-tarixilik və obyektivlik təşkil edir. Tədqiqat zamanı tarixi tədqiqatın konkret metodlarından biri olan məntiqilik metodundan da istifadə edilmişdir. Alınan nəticələrə əsasən Böyük Vətən müharibəsi gətirdiyi ağrı-acılarla bərabər, naxçıvanlı döyüşçülərdə qəhrəmanlıq göstərmək və müharibədə qalib gəlmək həvəsi həvəsi oyatdı,vətənpərvərlik hisslərini ön plana çıxardı. Müharibə qələbə ilə qurtardı, bu böyük tarixi hadisə xalqın sevincinə, döyüşçülərimizin qurub-yaratmaq ilhamına səbəb oldu. Məqalənin təcrübi əhəmiyyəti onunla izah edilir ki, məqalədə istifadə olunmuş faktiki materiallardan və əldə edilmiş nəticələrdən ali məktəblərin tarix fakültələrində ixtisas kurslarının aparılmasında, ümumiləşdirilmiş əsərlərin yazılmasında, tədris və dərs vəsaitlərinin hazırlanmasında istifadə oluna bilər. Bundan əlavə Naxçıvan tarixinə dair elmi tədqiqat işlərinin aparılmasında və dərslərin tədrisində də istifadə edilməsi mümkündür. Xalqın dinc həyat sürdüyü, yaradıcı əməklə məşğul olduğu dövrdə həmin cəbhə məktublarının əhəmiyyəti nə qədər böyükdürsə müharibə günlərində, bütün xalq silaha sarılaraq öz vətənini düşməndən qorumağa qalxdığı zaman bu əhəmiyyəti daha da artır.

**Açar sözlər:** *Naxçıvan, II Dünya müharibəsi, "Şərq Qapısı" qəzeti, cəbhə məktubları, ön cəbhə*

## Giriş

Bəşər tarixində baş verən saysız-hesabsız müharibələr içərisində miqyasına, toqquşan tərəflərin maraqlarına və digər məsələlərə görə İkinci Dünya müharibəsi xüsusi yer tutur. İkinci Dünya müharibəsi əks geosiyasi mövqelərdə çıxış edən aparıcı dövlətlərin dünyanı yenidən bölmək uğrunda mübarizəsinin nəticəsi idi.

Müharibənin başlanması haqqında ilk məlumat "Şərq qapısı" qəzetinin 25 iyun tarixli nömrəsində dərc olunmuş Sovet Sosialist Rspublikaları İttifaqı Xalq Komissarları Soveti sədrinin müavini və Xalq Xarici İşlər Komissarı V.M.Molotovun 22 iyun 1941-ci ildə radio ilə çıxışının tam mətni verilmişdir.

**II Dünya müharibəsinin ön cəbhələrində döyüşən naxçıvanlıların cəbhə məktubları.** Qəzetin 27 iyun 1941-ci il tarixli nömrəsində Noraşen (Şərur) rayonunun Yenkicə kəndindən Zöhrəbanunun oğluna məktubu dərc edilmişdi. Məktubda yazılır: "Əziz oğlum! Vətənimizin parlaq və dünya tarix əhəmiyyəti olan nailiyyətləri faşist barbarlarının gözünə bıçaq kimi batır... Sənin hər bir möhkəm zərbən mənim üçü yüksək fəxrdir. Unutma ki, sənin qələbən mənim tarlamın daha da gözəlləşməsinə səbəb olacaq, müvəffəqiyyət vədimin doğulmasına şərait yaradacaqır. Bol məhsul əldə etməyimiz isə Vətənin müdafiəsi, şən həyat deməkdir" (1, 1941, 27 iyun).

Qəzetin 1942-1944-cü ildə çıxmış nömrələrində Sovet İttifaqı Qəhrəmanları Abbas Quliyev, Qəzənfər Əkbərov, Nəcəfqulu Rəfiyev, cəsur komandirlərdən Akim Abbasov, Əsgər Əhmədov, Nemət Kərimov, Əli Məmmədov, Allahverdi Kərimov, Mehdi Mahmudov, İsmayıl Sayılov, Əsgər Hüseynov, Cəboş Şıxəliyev, Cəfər Məmmədov və onlarla başqalarının Böyük Vətən müharibəsindəki qəhrəmanlıqlarından danışılır.

Qəzetin 1942-ci il tarixli 6-22 və 26 mart tarixli nömrələrində Cənub-Qərb cəbhəsində alman faşist işğalçılarına qarşı böyük mərdlik və qəhrəmanlıq göstərən həmyerlimiz, Şərur rayonunun Qıvraq kənd kolxozunun üzvü Cəboş Həsən oğlu Şıxəliyev haqqında geniş materiallar verilmişdir. 26 mart nömrəsində isə alman faşist işğalçılarına qarşı döyüşdə fərqləndiyinə görə Cəboş Şıxəliyevin "İgidliyə görə" medalı ilə təltif edilməsi barədə məlumat və gənc şair Hacı Əsgərovun Cəboş Şıxəliyevə ithaf etdiyi "Alqış vətənin sadiq oğluna" şeri dərc edilmişdir (1, 1942, 26 mart).

Qəzetin 7 mart 1942-ci il tarixli nömrəsində müharibənin ağır illərində Poltava, Xarkov, Voronej, Kursk cəbhələrində vuruşmuş həmyerlimiz Ağa Həsən oğlu Ağayevin ailəsinə göndərdiyi məktubunda oxuyuruq: "Əzizlərim! Hazırda mən şən və xoşbəxt həyatımızı əlimizdən almağa çalışan hitlerçi cəlladlara qarşı vuruşuram. Onlar heç bir zaman istədiklərinə nail ola bilməyəcəklər! Gündəlik qəzetləri oxuyursunuzmu? Faşistlər doğma qızıl ordumuzun amansız zərbələri altında geri çəkilirlər.

Quduzlaşmış hitlerçilər geri çəkilərkən kəndləri yandırır, günahsız körpələri odlara atırlar. Sizin kimi uşaqları süngüdın keçirirlər. Onlar heyvanxanada gördüyümüz vəhşi heyvanlardan da pisdilər.

Əzizim Fatma, uşaqlardan muğayat ol! Əvəzimdən Kamoşu, Əloşu və balacanı öpərsən. Onların dərslərinə həmişə özün bax. Məndən nigaran qalma. Son damla qanım qalanadək anamız vətənə sadiq qalacağıma and içirəm. Vətənin müdafiəsindən şrəfəli nə var əzizim. Məndən qohum-əqrəbaya salam söylə. Tezliklə görüşərik! Sizin Ağa Ağayev" (1, 1942, 7 mart).

Müharibəyə könüllü gedənlərin sırasında həmyerlimiz Məmməd Əliyev 1942-ci ilin yanvar ayında atası Hüseyn Əliyevə göndərdiyi məktubunda yazır: "Urəyimdə bəslədiyim əsgər salamını sizin kimi əzizlərimə təqdim etməklə çox şadam. Mən də sağ-salamat varam. Bu məktubu

Qərb cəbhəsindən yazıram. Ölərəmsə vətən yolunda ölərəm. Ata! Heç ürəyinizi sıxmayın, tezliklə faşistləri vətənimizdən təmizləyib qurtaracağıq. Son damla qanım qalanadək torpağımızın hər qarışı uğrunda vuruşacağam. Hamınızı öpür və əllərinizi sıxıram. Anama, bacım Dilarəyə və Məsməyə çoxlu salamım var. Oğlunuz Məmməd".

Qəzetin 22 mart 1942-ci il tarixli nömrəsində Məmməd Əliyevin bacısı Dilarə Əliyevanın Məmməd Əliyevə göndərdiyi cavab məktubu dərc edilmişdir. Dilarə cavab məktubunda yazır: "Sevimli qızıl əsgər qardaşım Məmməd. Əvvəla salamımı sənin kimi istəkli qardaşıma təqdim edirəm. Sevgili qardaşım, biz gərək ana vətənimizi düşməndən göz bəbəyi kimi qoruyaq. Sənin cəbhədə vətən uğrunda hünər göstərdiyin bizi sevindirir. Anamın südü sənə hala olsun, böyük qəhrəman olasan, döşün ordenlə bəzənsin.

Sən bizdən arxayın ol, sağ-salamat olub gözəl yaşayırıq. Qardaşım mən də bu il Naxçıvan tibb məktəbini qurtarmışam. Lazım gələrsə bir tibb bacısı kimi vətəni müdafiəyə hazıram. Sizinlə cəbhədə vuruşan bütün qardaş və bacılarımla fəxr edirəm. Mən onlarla birlikdə mənfur düşməni məhv etmək üçün həmişə hazıram. Öpürük səni, sağ olun, düşməni daha da bərk vurun. Bacın Dilarə (1, 1942, 22 mart).

Qəzetin 29 avqust 1942-ci il tarixli nömrəsində cəbhədə vuruşan naxçıvanlı komsomolçu gənclərdən baş serjant Məmməd Bağırovun, serjant Zeynalabdin Kazımovun, starşina Aqoş Mirişlinin, baş serjant həmid Mürsəlovun, baş serjant İsmayıl İsmayılovun, kiçik siyasi rəhbər İslam Səfərlinin Naxçıvan Vilayət Komitəsinə göndərdikləri məktub dərc olunub. Məktubda deyilir: "Naxçıvanın bütü zəhmətkeşlərinə, kolxozçularına, kolxozçu qadınlarına, fəhlələrinə, ziyalılarına bizdən alovlu əsgər salamı! Biz Lenin komsomolu sırasında böyümüş və tərbiyə almış gənclərik. Biz əlimizə silah alaraq əziz vətənimizin müdafiəsinə qalxmışıq. Vətən uğrunda son damla qanımız qalana qədər vuruşacağımıza və azğın düşmənə sarsıdıcı zərbələr vuracağımıza and içmişik.

Naxçıvan gəncləri! Biz alçaq alman faşistlərinə olan kinimizi süngümüzə yazaraq düşmənlərimizin köksünə sancacağız. Biz düşmənlə mərdliklə vuruşduğumuz kimi, siz də təsərrüfatda, dəzgah başında inamla çalışın, cəbhəni və ölkəni hər cür məhsulla təmin edin. Bilin ki, həyat mərdlərin, qoçaqların və həqiqət uğrunda mübarizə aparanlarındır. Biz də sizi əmin edirik ki, alçaq faşistlərin məhv edilməsində qəhrəmanlıqla vuruşanların ilk sıralarında olacağıq (1, 1942, 29 avqust).

Qəzetin 7 noyabr 1942-ci il tarixli nömrəsuində muxtar respublika gənclərinin həmyerlimiz mayor Akim Abbasova göndərdikləri məktub da maraqlıdır. Məktubda deyilir: "Əziz dostumuz və həmyerlimiz. Sən ümumi iş dairəsində həmişə bizimləsən. Sizin, eləcə də ölkədə arxa ilə cəbhənin əlaqəsi və dostluğu getdikcə möhkəmlənir və artır. Biz yaxşı başa düşürük ki, yaxşı işlərimiz sizin qəlbinizi təmin edir. Düşmənin tamamilə darmadağın və məhv olmasını yaxınlaşdırır.

Hörmətli Abbasov yoldaş! Biz Naxçıvan gəncləri sənin adına yeni bayram sovqatları göndərməklə öz məhəbbət və hörmətimizi sizə bildirir, vətən uğrunda, xalqımızın şərəfi və namusu uğrunda sonadək sönməz bir qüvvə ilə mübarizə etməyinizi arzu edirik. Bu yalnız bizim deyil, bütün ölkənin və xalqımızın arzusudur (1, 1942, 7 noyabr).

Qəzetin 12 dekabr 1942-ci il tarixli nömrəsində Stalinqrad rayonundan A.Dolqovun imzası ilə "Naxçıvanlı Əli Hüseynov intiqam alır" yazıda igid həmyerlimizin 30-a yaxın düşmən tankının irəliləmisinə mane olduğu, Naxçıvandan Volqa sahillərinədək şərəfli döyüş yolu keçdiyi, onlarla alman hərbçisini-1 zabitini öldürdüyü, düşmənin 2 tank və avtomobilini məhv etdiyi haqda məlumatlar verilir. Qızıl əsgər Əli Hüseynov haqqında A.Dolqov yazırdı: "Vasili yoldaşın bölməsi yürüşdə idi. Qəflətən təpənin arxasından 30-yaxın alman tankı çıxdı. Tanklarla döyüşçülərimizin arası cəmi 150-200 metr olardı. Bir dəqiqə belə keçə idi düşmən maşınları döyüşçülərimizi əzəcəkdi. Tankların qarşısını necə olursa-olsun saxlamaq lazım idi.

Nə cür saxlamaq? Sovet döyüşçüləri vuruşa hazırlaşana qədər zərbəni kim isə öz üzərinə almalı idi.

Baş serjant Əli Hüseynov bir düşmən tankına zirehdələn silahdan 2 güllə atdı. Maşın yerində durub qaldı. Döyüşçülərimizə də elə bu lazım idi. Onlar özlərini vuruşa hazırlayıb düşmənə atəş açdılar. Tanklar nizamsız şəkildə top və pulemyot atəşi açdılar.

Hər tərəfi alov bürümüşdü, föydən metal qırıntıları yağırdı. Ancaq heç kəs yerindən tərpənmirdi. Cinahda topçularımız öz qurğuşunlarını alman tankları üzərinə yağdırmaöa başladılar. Qızıl əsgərlər tankdağıdan qumbaraları işə saldılar. Düşmən tanklarının biri, ikisi, üçü alovlanıb yanmağa başladı. Nəhayət, alman tankları geri çəkilməyə məcbur oldu.

Naxçıvandan buraya Volqa sahilinə öz doğma vətənini müdafiə etməyə gəlmiş Əli Hüseynov Azərbaycan xalqının etimadını şərəflə doğrultdu. O, onlarca alman faşistini, o cümlədən bir zabiti öldürmüş, düşmənin iki avtomobilini və iki tankını məhv etmişdir.

Həmyerliniz Əli Hüseynov igidlərə məxsus cürət və qoçaqlıqla döyüşə girib həmişə qalib çıxır" (1, 1942, 12 dekabr).

Qeyd edək ki, Əli Hüseynov Naxçıvan şəhərində anadan olmuşdur. Müharibəyə könüllü olaraq getmişdir. O, Stalinqrad uğrunda buruşmalarda bir neçə düşmən tankını, avtomobilini, zabit və əsgərini məhv etmişdir. Mərd komçomolçu kimi vuruşduğuna görə komandanlığın hörmətini qazanmış və medallarla təltif olunmuşdur.

402-ci Azərbaycan diviziyasının igid oğlu, mayor Akim Abbasovun komandanlıq etdiyi 833-cü polk 1942-ci ilin dekabrında Mozdokun şimal-şərqində hücuma keçərək 10 gün davam edən döyüşdə düşmənin 13 hücumunu dəf etmişdi. Bu döyüşlərdə A.Abbasovun döyüş yoldaşları misilsiz şücaət göstərdi. Akim Abbasovun polku iki gündə düşməni 34 kilometr geri qovmuş, 4 yaşayış məntəqəsini azad etmiş, 2 müqavimət nöqtəsini ləğv etmişdir. Bu müddət A. Abbasovun polku düşmənin 36 tankını, 3 avtomaşınını, 7 radiostansiyasını, 5 minomyot artilleriya batareyasını və 500-dən çox əsgər və zabitini məhv etmişdi.

Döyüşdə igidlik göstərdiyinə görə polkun 72 döyüşçüsü SSRİ orden və medalları ilə təltif edilmişdir. Mayor A.Abbasov isə "Qırmızı Bayraq" ordeni ilə təltif edilmiş və ona podpolkovnik rütbəsi verilmişdir.

Zaqafqaziya cəbhəsinin komandanı, ordu generalı İ.V.Tulenev yazmışdır: ""Faşistlər A.Abbasovun bölməsi tərəfindən müdafiə olunan mövqelər üzərində 70-dən 100-ə qədər tankla 30 dəfə hücum etdi. Almanlar top və pulemyotlardan atəş açır, tankların tırtılları ilə hər şeyi əzib məhv edirdilər. Azərbaycanlı döyüşçülər bir çox yoldaşlarının həlak olduğunu görürdülər. Lakin

onlar düşmənin 36 tankını yandırdılar və məhv etdilər, həm də hər dəfə sübut etdilər ki, qoçaq əsgər tankdan güclüdür" (1, 1943, 25 fevral).

Müharibədən qabaq Naxçıvan MSSR Xalq Torpaq Komissarlığında çalışan sürücü Qurban Qurbanov 24 iyun 1943-cü ildə öz işçi yoldaşlarına göndərdiyi məktubunda yazır:

"Sizə səmimi döyüşçü salamlarımı yetirir və əllərinizi sıxıram. Mən Naxçıvan MSSR Xalq Komissarlığında necə çalışdımsa, cəbhədə ondan on qat artıq gücümlə çalışıram. Komandirlərim mənim işimə yüksək qiymət verirlər. 4 dəfə təşəkkür almış və 1943-cü ilin yanvar ayında "Döyüş xidmətinə görə" medalı ilə təltif edilmişəm. Özüm də qvardiyaçı şoferəm. İndi Stalinqrad cəbhəsində almanlardan qənimət alınmış avtomobildə işləyir, düşmənin tezliklə məhv edilməsi uğrunda yorulmaq bilmədən çalışıram. Şoferi olduğum polkovniki hara göndərirlərsə məni də özü ilə aparır. O, çox yaxşı və qayğıkeş adamdır.

Əziz işçi yoldaşlarım! Qəhrəman Qızıl Ordumuzun qış hücumu zamanı çoxlu sovet şəhərini və kəndini əclaf düşməndən azad etdik. Alman faşistlərinin dinc sovet əhalisinə verdiyi əzabın şahidi oldum. Bu məni düşmənə qarşı daha amansız olmağa çağırır. Düşmənə elə bir zərbə vuracayıq ki, o, bir daha özünə gələ bilməyəcəkdir. Məndən ailə üzvülərinizə və bütün tanışlara salam söyləyin. Hörmətlə: Sizin Qurban Qurbanov. 24 iyun 1943-cü il

"Şərq qapısı" redaksiyasının sabiq fəal müxbiri Cəfər Məmmədov da (Sirablı) müharibənin ilk günlərindən Qızıl Ordu sıralarında alman faşist işğalçılarına qarşı vuruşurdu. Onun 12 avqust 1943cü ildən cəbhədən redaksiyaya göndərdiyi məktubunda bütün Naxçıvan zəhmətkeşlərinə salam yetirməyi xahiş etmiş və azğın faşist işğalçılarına qarşı son damcı qanı qalana qədər vuruşacağına and içdiyini bildirmişdir. Məktubunda bu bayatıları da yazıb göndərmişdir:

Əzizlərim mərdanədi,
Mərd sözü mərdanadı.
Vətənə igid verən
Mərd ata, mərd anadır.
Əzizim varın sənin
Namusun arın səsin.
İgid olub ad aldın,
Xoşbəxtdir yarın sənin...
(1 ,12 avqust 1943-cü il)

Müharibə illərində gənc şairlərimizlə bərabər, ata-anaların övladlarına yazdıqları məsləhətçi məktublar və şerlər də dərc edilmişdir. "Şərq qapısı" qəzetinin 19 avqust 1943-cü il tarixli nömrəsində Naxçıvan şəhəri Vorovski küçəsi 16№-li evdə yaşayan Nərgiz Məmmədəliyevanın ön cəbhədə vuruşan oğlu Əliyə yazdığı 4 kupletli şeri dərc edilmişdir. Xalanın yazdığı şer qəzetin həmin nömrəsində aşağıdakı kimi dərc edilmişdir:

Başına döndüyüm mərd oğlum Əli,
Ananın yaqutu, incisi, ləli.
Könlümün arzusu, dilim əzbəri
Var böyük ümidim yenə görüşək.

Bəslədim qoynumda bir aslan səni,
Çək düşmən üstünə oğul dəstəni.
Qəlbində bərk saxla əziz vətəni,
Var ölməz ümidim yenə görüşək...

Onlarla ata-anaların müharibə illərində vuruşan oğul-qızlarına, həyat yoldaşlarına məzmunlu məktublar yazaraq onların vətən uğrunda həmişə mərdliklə vuruşmalarına məsləhət vermişlər.

"Şərq qapısı" redaksiyasının əməkdaşı, gənc şair Hacı Əsgərov ordu sırasına alındıqdan bir neçə vaxt sonra vətən müharibəsi səbhələrində qüşmənə qarşı mübarizəyə başlamışdır. O, arxada ikən özünün məzmunlu şerləri ilə döyüşçülərimizi ruhlandırmaqda az iş görməmişdir.

Hacı Əsgərov 21 avqust 1943-cü ildə "Şərq qapısı" qəzeti redaksiyasının kollektivinə göndərdiyi məktubunda yazır: "Siz fəxr ertməlisiniz ki, fəlakət gətirən qanlı kabus-alman faşizminə qarşı qəhrəmancasına mübarizə aparan döyüşçülərin sırasında sizin də əməkdaşlarınız vardır. Bu sırada mən tapşırıqları layiqincə yerinə yetirdiyim üçün komandirlərin hörmətini qazanmışam.

Arxada olarkən öz ürək duyğularını, vətənə məhəbbətini söz incilərimlə tərənnüm etdiyim kimi, indi əldə silah müqəddəs vətəni düşməndən müdafiə edirəm. Düşmənə qarşı sonadək amansız olaraq vuruşmaqda bir damcı qanımı belə əsirgəməyəcəyimə and içmişəm.

Hörmətli əməkdaşlarım! Düşmən məhv edilmək üzrədir. Ali Baş Komandamız, Sovet İttifaqı Marşalı Stalin yoldaşın hər gün yeni qələbələrə gətirən komandası faşizmin çürüməkdə olan təməl daşını parçalamış və tarixin səhifəsinə qızıl hərflərlə yazılmışdır:

Bizik insanlığa səadət verən,
Bəşər karvanına yollar göstərən!
Bizik şən həyatı quran, yaradan.
Bizimdir bu həyat, bu şanlı dövran.
Sən ey qarı düşmən fikrindən əl çək,
Dara çəkməkdədir səni gələcək.
Sənsən, həyasızsan sözün doğrusu.
Səadət oğrusu, vicdan oğrusu.
Bəsdir insanlığa vurduğun yara
Gömülsün varlığın qara torpağa!

Hörmətli əməkdaşlarım! Düşməni tezliklə darmadağın etmək hamımızın vahid məqsədimizidir. Buna görə də arxa cəbhə üçün sizin bütün varlığınızla çalışmağınızı arzu edirəm.

Hörmətlə: Sizin Hacı Əsgərov" (1, 1943, 21 avqust)

19 noyabr 1943-cü ildə "N" diviziyasının ştab rəisi Morozov yoldaş "Şərq qapısı" qəzeti redaksiyasına göndərdiyi məktubunda yazırdı:

"1942-ci ilin axırlarında Qızıl Ordu sırasına alınaraq hərbi məktəbə göndərilmişdir. O, məktəbdə hərbi texnikanı tələb etdiyi kimi öyrənərək cənub-qərb cəbhəsində döyüşlərdə iştirak etmiş, sonra Şimali Qafqaz cəbhəsinə göndərilmişdir.

K.Kazımov Mozdokdan tutmuş Tomanadək Qızıl Ordunun hücumunda iştirak etmiş və düşmənin atəşi ilə sıradan çıxarılan topları, müşahidə alətlərini və başqa silahları gecikmədən təmir edir və döyüşə göndərirdi.

Temryuk ətrafında aparılan döyüşlərin birində düşmənin atəşi bir topun çox hissəsini ağır surətdə zədələmiş və top atəş aça bilməmişdir. Kazımov özünü təhlükə qarşısında qoyaraq, şiddətli atəş altında özünü topun üzərinə atmış və az keçmədən onu saz hala salmışdır. Sonra Kazımov həmin topdan atəş açaraq, piyadalarımızın hücumuna mane olan düşmənin iki topunu və bir minaatanını sıradan çıxarmışdır. Hissənin döyüşçüləri hücumu sürətləndirmiş və Temryuk şəhərinə hamıdan qabaq girmişlər. Məhz bu şücaətinə görə komandanlıq Kazımovu "Qırmızı Ulduz" ordeni ilə təltif etmişdir.

Kazımov bu yüksək mükafata cavab olaraq hissədə öz fəallığını daha da artırmışdır. İndi o azərbaycanlı döyüşçülər arasında yüksək keyfiyyətli məşğələlər keçərək hərbi texnikanı onlara dərindən mənimsədir. Buna görə hissədəki azərbaycanlılar xüsusilə fərqlənirlər. Onlar Abid Mövsümov "İgidliyə görə" və "Döyüş xidmətlərinə görə" medalları, baş serjant H.Eldarov "İgidliyə görə" medalı, starşina Qafarov, Məmmədov, Ağaçanov, Hacıyev, Kərimov, Axundov, Hənifəyev və Əliyev kimiləri "İgidliyə görə" medalı ilə təltif edilmişlər. Bundan başqa 11 nəfər azərbaycanlı təltif edilmək üçün komandanlığa təqdim edilmişdir" (1., 19 noyabr 1943-cü il).

Qəzetin 02 iyun 1944-cü il tarixli nömrəsində Əbrəqunus (Culfa) rayonunun Noraşen kəndindəki 68 yaşlı Alı Bayramov haqqında danışılır. "Vətənpərvər Alı kişi" başlıqlı yazıda oxuyuruq: "Alı kişi gözünün ağı-qarası olan oğlunu ordu sıralarına yola salarkən "Arxayın get oğlum, mən səni təsərrüfatda əvəz edəcəyəm. Ancaq sən də vətən qarşısında və qoca atanın qarşısında üzü qara çıxma,- deyə xeyir-dua verdikdən sonra oğlundan ayrılmışdır".

Qoşunlarımızın düşmən üzərindəki qələbələri Alı kişidə böyük ruh yüksəkliyi doğurmuşdur. Onun cəbhədəki oğluna yazdığı məktubda deyilirdi: "Əziz balam qoşunlarımızın düşmən üzərindəki qələbəsi bütün kolxozçularımızı sevindirir. Düşmən üzərində qazanılan tarixi qələbələrdə arxada çalışan zəhmətkeşlərin böyük əməyi var. Ölkəyə və cəbhəyə tələb olunandan daha artıq məhsul vermək üçün qüvvəmizi əsirgəmirik. Oğlum, sən də vuruşmalarda daha qoçaq və daha igid ol. Düşmənə vuracağınız qəti zərbədə yüksək qoçaqlıqlar göstərərək orden və medallar almağa nail ol" (1, 1944, 02 iyun).

Həmyerlimiz Nehrəm kənd sakini Bağır Bağırov da müharibənin ilk günlərindən səfərbərliyə alınmış, o 76-cı diviziyanın 560-cı batareya alayında xidmətə başlayır.

Stalinqrad rayonunda almanların əsir alınması və məğlub edilməsi əməliyyatında mahir bir topçu kimi göstərdiyi şücaətə görə komandanlıq tərəfindən Bağır Bağırova "Fədakarlığa görə" və "Stalinqradın azad edilməsinə görə" medalları ilə təltif edildi. Sonra ən yaxşı topçu kimi diviziyada daha güclü sayılan 200-cü qvardiya alayının 3-cü briqadasının 5-ci batareyasına keçirildi. Burada o qvardiya adını aldı. Bağır Bağırov bu zaman iri çaplı uzaqvuran topu idarə edirdi. O, bu topla düşmənin 3 tankını, 1 zirehli maşınını, 2 hərbi sursat daşıyan maşınını və çoxlu qüvvəsini məhv etdi. Bu şücaətə görə Bağır "Qırmızı Ulduz" ordeni ilə təltif olundu.

Qəzetin 20 aprel 1945-ci il tarixli nömrəsində alay komandiri qvardiya leytenant İvan Lazareviç Fleimanov Bağırın anası Püstə arvada göndərdiyi məktub dərc edilmişdir. Həmin

məktubda yazırdı: "Sevimli Bağırımızın hünəri bizi heyran edir. O, qorxmaz və cəsurdur. Döyüş tapşırıqlarının layiqincə yerinə yetirir. Oğlunuz Bağır bütün diviziyanın hörmətini qazanıb. O, bu hörməti ağır döyüşlərdə, faşistlərə qarşı vuruşmalarda qazanıb. İnsanların azadlığı uğrunda döyüşlərdə, o, düşmənlərə qarşı mərdliklə döyüşür.

Komandirlərin döyüş tapşırıqlarını əla yetirdiyinə görə oğlunuz Bağır "İgidliyə görə", "Stalinqradın müdafiəsinə görə" və "Qızıl Ulduz", "III dərəcəli Şöhrət" ordenləri ilə təltif edilmişdir. Onun döşünü bir-birinin ardınca orden və medallar bəzəyir. Öz oğlunuzla fəxr edin. Bu nəinki sizin fəxrinizdir, bu Qızıl Ordunun, bütün sovet xalqının fəxridir" (1, 1945, 20 aprel).

**Nəticə.** Müharibə qadınlarımızın kişilərlə birlikdə cəbhələrdə necə fəal iştirak etdiklərini, xüsusilə arxada öz atalarını, ərlərini və qardaşlalarını necə fədakarlıqla əvəz etdiklərini, qələbəmizə misilsiz köməklik göstərdiklərini müharibə dövründə "Şərq qapısı" qəzetinin səhifələrində xüsusilə qeyd etmişdir.

Müharibənin ilk günlərindən səfərbərliyə alınan kişilərin içərisində qadınlarımız, qızlarımız da olmuşdur. Ön cəbhələrdə odun-alovun içərisində yaralı əsgərlərimizin həyatını qurtaran naxçıvanlı qadınlarımız: Firuş Məmmədəliyeva, Səfiyyə Sultanova, Dilbər Təhməzbəyova, Zərifə Camalbəyova, Lora Abdullayeva, Səkinə Şəfiyeva, Sura Sadiqova və başqaları haqqında "Şərq qapısı" qəzetinin səhifələrində geniş danışılır.

Kiçildilmiş formada yazılmış bu faktlar II Dünya müharibəsi illərində, ağır imtahan günlərində Naxçıvan zəhmətkeşlərinin vətənə, hədsiz sədaqətini parlaq şəkildə nümayiş etdirir. Bu faktlar göstərir ki, cəbhə ilə arxanın birliyi alman faşizmi üzərində tarixi qələbəmizin həlledici amili olmuşdur.

**ƏDƏBİYYAT**


1. "Şərq qapısı" qəzeti, 1941, 27 iyun
2. "Şərq qapısı" qəzeti, 1942, 26 mart
3. "Şərq qapısı" qəzeti, 1942, 7 mart
4. "Şərq qapısı" qəzeti, 1942, 22 mart
5. "Şərq qapısı" qəzeti, 1942, 29 avqust
6. "Şərq qapısı" qəzeti, 1942, 07 noyabr
7. "Şərq qapısı" qəzeti, 1942, 12 dekabr
8. "Şərq qapısı" qəzeti, 1943, 25 fevral
9. "Şərq qapısı" qəzeti, 1943, 24 iyun
10. "Şərq qapısı" qəzeti, 1943, 12 avqust
11. "Şərq qapısı" qəzeti, 1943, 21 avqust
12. "Şərq qapısı" qəzeti, 1943, 19 noyabr
13. "Şərq qapısı" qəzeti,1944, 02 iyun
14. "Şərq qapısı" qəzeti, 1945, 20 aprel


## РЕЗЮМЕ

## ФРОНТОВЫЕ СТРОКИ, НАПИСАННЫЕ ЖИТЕЛЯМИ НАХИЧЕВАНА ВТОРОЙ МИРОВОЙ ВОЙНЫ НА СТРАНИЦАХ ГАЗЕТЫ «ШАРК КАПЫСЫ»

**Фахраддин Джафаров, Яшар Рагимов**

Расследуемая тема до сих пор не была предметом отдельного расследования. Поэтому он имеет большое значение с точки зрения релевантности. Основная цель написания статьи – подробное, с использованием научных методов, рассмотрение писем, написанных бойцами Нахчывана с фронта во время Второй мировой войны, на основе материалов газеты «Восточные ворота». Методологической основой статьи являются научные принципы исторического познания — историчность и объективность. В ходе исследования также использовался один из специфических методов исторического исследования — логический метод. Согласно полученным результатам, Великая Отечественная война, несмотря на принесенные ею боль и страдания, пробудила у воинов Нахчывана стремление проявить героизм и победить в войне, выдвинула патриотизм на первый план. Война завершилась победой, это великое историческое событие принесло радость народу и вдохновило наших воинов на созидание и творчество. Практическая значимость статьи определяется тем, что использованные в статье фактические материалы и полученные результаты могут быть использованы при чтении специализированных курсов на исторических факультетах высших учебных заведений, при написании обобщающих работ, при подготовке учебно-методических пособий. Кроме того, его можно использовать при проведении научных исследований и преподавании занятий по истории Нахчывана. Значение фронтовых писем особенно возрастает в период, когда народ жил мирной жизнью и занимался созидательным трудом. Это значение еще больше возрастает в дни войны, когда весь народ берет в руки оружие и встает на защиту своей Родины от врага.

**Ключевые слова:** *Нахичевань, Вторая мировая война, газета «Шарк Капысы», фронтовые письма, линия фронта*

## SUMMARY

## FRONT LETTERS WRITTEN BY NAKHCHIVANIS ON THE FRONT LINES OF WORLD WAR II ON THE PAGES OF THE "SHARQ KAPISI" NEVPAPER

**Fahrattin Cafarov, Yashar Rahimov**

The topic under study has not been a separate object of investigation so far. Therefore, it is of great importance in terms of relevance. The main purpose of writing the article is to examine in detail, using scientific methods, the letters written by Nakhchivan fighters from the front lines during World War II, based on the materials of the "Sharq Kapisi" newspaper. The methodological basis of the article is the scientific principles of historical understanding - historicity and objectivity. The method of logic, which is one of the specific methods of historical research, was also used

during the research. According to the results obtained, along with the pain and suffering brought by the Great Patriotic War, the desire to show heroism and win the war in Nakhchivan fighters aroused enthusiasm, brought patriotism to the forefront. The war ended in victory, this great historical event caused the joy of the people and the inspiration of our fighters to build and create. The practical significance of the article is explained by the fact that the factual materials used in the article and the results obtained can be used in conducting specialized courses at the history faculties of universities, writing generalized works, and preparing teaching and learning materials. In addition, it is possible to use them in conducting scientific research on the history of Nakhchivan and teaching lessons.The importance of those front letters is as great as during the period when the people lived a peaceful life and were engaged in creative labor, but this importance increases even more during the days of war, when the whole people took up arms and rose to defend their homeland from the enemy.

**Keywords:** *Nakhchivan, World War II, "Sharq Kapisi" newspaper, front letters, front line*